| | | |
|---|---|---|
| **Ümumi məlumat** | Fənnin adı, kodu və kreditlərin sayı | **DSN 468 Mebel dizaynı, 6 AKTS** |
| | Departament | **Memarlıq və dizayn departamenti** |
| | Proqram (bakalavr, magistr) | Bakalavr |
| | Tədris semestri | 2024/25-cü tədris ilinin payız semestri |
| | Fənni tədris edən müəllim (lər) | Dəniz Baxışzadə<br>PhD tələbəsi |
| | E-mail: | denizbaxiszade@gmail.com |
| | Telefon: | +99451 458 47 82 |
| | Mühazirə otağı/Cədvəl | Neftçilər korpusu, |
| | Məsləhət saatları | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | - | |
| **Tədris dili** | Azərbaycan dili | |
| **Fənnin növü (məcburi, seçmə)** | Seçmə | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. Bəkirova Təranə ”Dizayn Tarixi” 2012<br>2. Ağayeva Nərgiz “İnteryer mühitinin dizaynı “ 2013<br>3. Carmen Espegel Elieen Gray “Objects and Furniture Design<br>4. Stuart Lawson: Furniture Design:An Introduction to development, Materials and Manufacturing.<br>5. Daniela Karasova.”History of Modern Furniture Design”<br>6. Arthur Ruegg: Le Corbusier:Furniture and Interiors 1905-1965 | |
| **Kursun təsviri** | “Mebel dizaynı” fənni mebellərin yaranmasına təsir edən ifadə üsullarını, Rahatlığı, komfortu ön planda tutan, mebel modellərinin məkanın funksiyasından asılılığını tədris edir. Eyni zamanda mebellərin eskiz, cizgi, plan,kəsik, konstruktiv düyünlərini və digər elementlərinin vizual ifadə etmə öyrədir. | |
| **Kursun məqsədləri** | Fənnin məqsədi: “Mebel dizaynı” fənni ətraf mühitdə insanın mövcudluğunun şərtlərini emosional və bədii qiymətləndirmək bacarığı və onun bədii və funksional xüsusiyyətlərini yaxşılaşdırmaq istəyi. İnsan və cəmiyyətin həyatının subyekt (dizayn), məkan (memarlıq), avadanlıq (mebel) və bədii (vizual mədəniyyət) komponentlərinin və şəraitinin sintezi kimi ətraf mühiti formalaşdırmaq. Mebel dizaynına fərdi və komanda şəkilində yanaşma. İnteryerin funksiyasından aslı olaraq mebellərin dizayn qanunlarını mənimsəmək. | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Fənnin ümumi tədrisi prosesində tələbələr:<br>**bilməlidirlər:**<br>• Nəzərdə tutulmuş kursun tədrisi tələbələri bütövlükdə dizayn tarixində mebellərin keçdiyi təkamül yolunu;<br>• Müasir mebel dizaynı idealarının formalaşmasını;<br>• Layihəqabağı araşdırmanı;<br>• Məkana həcmi yanaşma metodunun tətbiqini;<br>• İstifadə olunan materialların bütün erqonomik standartlarını və xüsusiyyətlərini.<br>bacarmalıdırlar:<br>• Təsdiq konsepsiya üzrə funksional-planlaşma planının tərtibini;<br>• Müxtəlif tipli mebellırin formalaşdırılmasının əsas tendensiyaları və istiqamətlərini;<br>• Qəbul edilmiş norma və dizayn qaydaları, müasir istehsal texnologiyaları konstruksiyalar, istehsal materialları və onların birləşməsini;<br>• Mebellərin məkan və həcm elementlərinin sintezi kimi ətraf muhiti formalaşdırmaq;<br>• Mebellərin funksional insan miqyasına uyğun dizayn etmək; | |

| | | | |
|---|---|---|---|
| **Tədris metodları** | Mühazirə | + | |
| | Qrup müzakirəsi | + | |
| | **Praktik məşqlər** | + | |
| | **Praktik məsələnin təhlili** | + | |
| | Digər | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Davamiyyət** | | 5 bal |
| | **Fəallıq** | | 15 bal |
| | **Tapşırıq** | | 10 bal |
| | **Aralıq imtahanı** | | 30 bal |
| | **Final imtahanı** | | 40 bal |
| | **Yekun** | | 100 bal |

**Qaydalar (Tədris siyasəti və davranış)**

**Tapşırıq**
Tapşırıqlar hər mövzuya uyğun olaraq dizayn programlarında layihənin hazırlanması prosesinə görə qiymətləndirilir.

**Fəallıq**
Fəallığa görə veriləcək bal tələbənin müzakirələrdə iştirakına, tapşırığın həllində kreativ düşünmə tərzi, semester boyu hazırladıqları təqdimatlara (prezentasiya) görə veriləcək.

**Davamiyyət**
Dərsə davamiyyətə görə verilən maksimum bal 5 baldır. Balın miqdarı əsasən: tələbə semestr ərzində fənn üzrə bütün dərslərdə iştirak etdiyi halda ona 5 bal verilir. Fənn üzrə semestr ərzində buraxılmış dərs saatlarının ümumi sayı normativ 25%-dən müəyyən olunmuş (xəstəlik, ailə vəziyyəti və s.)həddən yuxarı olduğu halda tələbə imtahan sessiyasına buraxılmır və onun haqqında müəyyən qərar qəbul edilir.

**İmtahan haqqında**
1. Aralıq və Final imtahanlarının hər ikisi praktik şəkildə olacaqdır.
2. İmtahanlara görə veriləcək ballar baxış şəkilində departamentin təyin etdiyi kamisiya tərəfindən qiymətləndirilir.

**Fənni bitirmək qaydası** Tələbənin biliyi maksimum 100 balla qiymətləndirilir. kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 % və daha yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.

**İmtahan qaydalarının pozuntuları** Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmələr qadağandır. Bu qaydaya əməl etməyən tələbənin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.

**Tələbənin davranış qaydaları**
Tələbə Universitetin daxili nizam-intizam qaydalarını pozmaq və mobil telefondan istifadəsinə icazə verilmir.

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | | **Sillabusun təqdimatı.**<br>Mebel anlayışı, yaranması və inkişaf tarixi. | Eskizləri axtarın. |
| 2. | | **Mebellərin yaranmasına təsir edən üslublar.**<br>• Üslub xüsusiyyətlərindən asılı olaraq mebel və avadanlıqların fərqli cəhətləri.<br>• Forma, material və rəng digər xüsusiyyətlərin• dəyişməsi. | "Nomenklatura" stilizasiyası. |
| 3. | | **Mebel və tələbat.**<br>• Sosial ve funksional tələbatların mebellərin | |

| | | | |
|---|---|---|---|
| | | formayaranmasına təsiri.<br>• Formayaranmada əsas kompozisiya vasitələrinin üstünlüyü. | |
| 4. | | **Təyinatından asılı olaraq mebellərin növləri.**<br>• Küçə, memarlıq mühitində və interyerlərdə mebellərə qoyulan tələblər.<br>• Funksional zonalardan asılı mebel ve avadanlıqların təsnifatı.. | Qrafik kompüter proqramında iş və tapşırıq. |
| 5. | | **Yaşayış binalarının mebel növləri.**<br>• Erqonomik ölçüləri.<br>• Konstruktiv və material seçimi. | Eskizləri axtarın. |
| 6. | | **İctimai və Senaye binaların mebel ve avadanlıqları.** • İctimai iaşə binalarında mebellərin təskili: kafe, restoran, kinoteatr, teatr, əyləncə mərkəzləri, bank və digər məkanların funksional tələblərindən asılı mebel növləri.<br>• Mebel dizaynına təsir edən amillər: material, rəng, təhlükəsizlik.Bayram | "Nomenklatura" stilizasiyası. |
| 7. | | **Aralıq imtahanı** | |
| 8. | | Bayram | Qrafik kompüter proqramında iş və tapşırıq. |
| 9. | | **Ekoloji faktorların mebel dizaynına təsiri, eko dizayn.**<br>• Mebel həllərinə təsir edən region xüsusiyyətlərindən asılı fərqlilik (alman, Skandinaviya, yapon mebelləri) | Eskizləri axtarın. |
| 10. | | **Müasir dövrdə mebel dizaynına təsir edən konsepsiyalar**.<br>• Konseptual yanaşmada dizaynerin rolu.<br>• Dizayner ve onların mebelleri | "Nomenklatura" stilizasiyası. |
| 11. | | **Mebelin layihələndirilməsi.**<br>• İfadə üsulları:mebellərin eskiz, cizgi, plan, kəsik, konstruktiv düyünlərinin və digər elementlərinin vizual ifadə etmə yolları. Nümunələr üzərində təhlil. • Layihələndirmə prosesinin təşkili. Funksiyasından asılı məkanın mebel və avadanlıqlarının həlli, layihələndirilməsi. Müasir və yeni tendensiyalar. | |
| 12. | | **Texniki tapşırığın hazırlanması.**<br>Mebelin avtocad proqramı ilə çizilməsi, xüsusi məkanda yerləşdirilməsi planı, kəsik və perspektiv görüntülərinin hazırlanması.<br>İnteryerde mebel dizaynını nəzərə alaraq onun həcmi fəza təşkili, layihələndirilməsi, vizualizasiyası. | Qrafik kompüter proqramında iş və tapşırıq. |
| 13. | | **Texniki tapşırığın hazırlanması.**<br>Mebelin avtocad proqramı ilə çizilməsi, xüsusi məkanda yerləşdirilməsi planı, kəsik və perspektiv görüntülərinin hazırlanması. İnteryerde mebel dizaynını nəzərə alaraq onun həcmi fəza təşkili, layihələndirilməsi, vizualizasiyası. | Eskizləri axtarın. |
| 14 | | **Texniki tapşırığın tamamlanması :**<br>• təklif edilən mebelin (furniture) material, rəng, konstruktiv həlli, eskiz, moodboard, kollaj, render, cizgilərinin təşkili.. | "Nomenklatura" stilizasiyası. |

| | | | |
|---|---|---|---|
| 15 | | **Texniki tapşırığın tamamlanması**:<br>• təklif edilən mebelin (furniture) material, rəng, konstruktiv həlli, eskiz, moodboard, kollaj, render, cizgilərinin təşkili. | |
| **Final imtahanı** | | | |

**Təsdiq edir:** Dos. Abbasova Ş.A.______________________

Memarlıq və dizayn departamentinin rəhbəri